**D İ L Ç İ L İ K**

**UOT 81 41; 801. 7**
**https://doi.org/10.59849/2311-8482.2025.3.73**

**FİRUDİN RZAYEV***

# HÜSEYN RAZİ YARADICILIĞININ FƏLSƏFİ DÜNYASI

*Məqalədə Naxçıvan ədəbi mühitində xüsusi yeri olan H.Razinin yaradıcılığında yer alan fəlsəfi fikirlərdən bəhs olunur. Onun şer dünyasında müəyyən istiqamətlərdən əks olunan fəlsəfi baxışları məqalədə yer alır. Biz qədim dövr fəlsəfi fikirlərin formalaşmasının xalqların dünyanı dərkdə müəyyən idrak formalarından yarandığını görürük. Məqalədə bu düşüm formalarının, dünyagörüşü daşıyan idraka olan məhəbbətn dünya elmində "fəlsəfə" adlanması faktları ilə qarşılaşırıq. H.Razi yaradıcılığında bu fəlsəfi fikirlər müəyyən istiqamətlərdən yer alır.*

*Tədqiqatda onun şerləri əsasında fəlsəfi baxışlarının elmi baxımdan izahları verilir. Görkəmli şair H.Razinin bədii yaradıcılığında, fəlsəfi fikirlərin maddi, mənəvi aləmi, metafizik baxışlarda idrakın təcəssümü yer alır. Burada, fərqli fəlsəfi amillərlə yanaşı onun ideoloji varlıqla vəhdətini də görürük.*

***Açar sözlər:*** *Sax, Suriyaş, Şixu, Azərbaycan, Naxçıvan, Türkiyə, oykonim, oronim, hidronim.*

## Giriş

Bildiyimiz kimi hər bir xalqın adət və ənənəsində yer alan müəyyən düşüncə forması o xalqların dünyanı dərkdə müəyyən idrak formalarını ortaya qoyur ki, bu düşüm formalarını, dünyagörüşü daşıyan idraka olan məhəbbət dünya elmində "fəlsəfə" adlanır. Azərbaycan ədəbiyyatı öz dahi yazarları ilə əsrlər boyu dünya ədəbiyyatında xüsusi yer almış, dünya ədəbiyyatının fəlsəfi aləminə öz milli düşüm tərzinin möhürünü vurmuşdur. Qeyd edək ki, bu fikrə müxtəlif istiqamətlərdən yanaşılmış, bəzi yazılarda "fəlsəfə" sözünü yunan mütəfəkkiri Pifaqorun (m.ö. YI əsr) işlətdiyi qeyd edilmiş və burada bu söz yunanca "phileo"- "sevirəm" və "sopia"- "hikmət" sözlərinin birləşməsindən əmələ gəlib, "hikməti sevmək" mənasında izah edilmişdir [1, s. 7]. Bəzi yazılarda isə "fəlsəfə" sözünün m.ö. VI əsrdə ilk dəfə yunan mütəfəkkiri Pifaqor tərəfindən deyilsə də, sonra isə Herodot və Heraklit tərəfindən də bu sözün **"hikmətə"-sofiya**, **"məhəbbət"-fileo** sözlərindən yaranmaqla "hikmətə olan məhəbbət" mənasında olduğu göstərilmişdir [ 9, s. 7]).

Göründüyü kimi, **hikmət** sözü fəlsəfənin mənasını anlamağın yolunu tutmaq tərzinin məhsulu olduğunu təsdiq edir. Biz bir çox yazılarımızda ilkin dini şamançılıq fəlsəfəsinin m.ö. VI minillikdə **Asər**/**Azər** türklərinin inancında yer alan **Asallak** tanrısı və **Asmaq** tayfaları tərəfindən ortaya qoyulduğunu qeyd etmişik.

Əgər Strabonun yazılarına diqqət etsək, burada As tayfalarının dini qurumu olan **Asmax** tayfalarının, yəni **maq asların** Yunan ölkəsində həmişə çarın sağında dayandığı, dövlət idarəçiliyində onlara məsləhətlər verdikləri tarixi faktlarına rast gəlirik. Asları dünya "türkoloqlarının" hansı xalq hesab etməklərindən asılı olmayaraq, mənbə və antik ədəbiyyatlarda bu tayfanın nə tarixinə, nə də yayım arealı və mədəniyyəti üzərinə kölgə sala bilməmişdir. Göstərilən nümunələrdən də göründüyü kimi onların hansı tarixi dönəmdə, hansı gücə, mədəniyyətə malik olmaları haqqında antik, qədim, orta əsrlər mənbələrində yetərincə tarixi faktlar mövcuddur. Bildiyimiz kimi qədim Turdi, Doray və digər türk tayfaları Yunan tarixi və mədəniyyətinin yaranmasında iştirak etmiş və bu tayfalar As türklərinin varisləri olmuşlar [13, s. 57-92, 435-452].

Xüsusi olaraq deyə bilərik ki, Strabonun yazılarındakı bu məlumatda yer alan Asmaq tayfaları **Şaman Aslar** onların inanc formalarındakı fəlsəfi fikirlər Yunan fəlsəfəsini də formalaşdırmaqla bərabər, Azərbaycanın qədim dövlətlərində də Maq tayfaları tərəfindən davam etdirilmiş, Zərdüştlükdəki bu fəlsəfəni insanın özünə doğru yönəltməsi də yunanlara təsir etmişdir. Sokrat, bu inancın əxlaqi problemlərə daha çox önəm verdiyini qeyd etmiş, onun fikrincə, fəlsəfə xeyir və şərin nə olmasını araşdırır. Burada xeyir bilikdə, şər cəhalətdə göstərilməklə, var-dövlətin isə, heç bir xeyir gətirmədiyi fikri müəllif tərəfindən önə çəkilmişdir [14].

Bu istiqamətdən Azərbaycan, o cümlədən də Naxçıvan əhalisinin mifik təfəkkürünə və tarixinə diqqət etdikdə bu m.ö. minilliklərə söykənən qədim türk inancları olmuşdur. Biz milli məişətimizdə, təbiət hadisələrinə münasibətlərdən ortaya çıxan fəlsəfi baxışların formalaşdığını da görürük ki, bu kimi amillər poetik mühitdə də öz izlərini əbədiləşdirmişdir. Azərbaycan poetik mühitinə nəzər saldıqda biz, xalqımızın bədii təfəkküründə də öz əksini tapmış müxtəlif istiqamətlərdən fəlsəfi baxışlarla rastlaşırıq.

**Görkəmli şair, Hüseyn Razi yaradıcılığında fəsəfi istiqamətlər**.

Biz Naxçıvan ədəbi mühitinə diqqət etdikdə xeyli sayda Naxçıvan şairlərinin də yaradıcılığında müəyyən istiqamətlərdən fəlsəfi baxışlara rast gəlirik ki, burada kosmoqonik, materiya, dini fəlsəfə, təbiət fəlsəfəsi kimi amillərin yer aldığını görürük. Əgər diqqət etsək, ümumiyyətlə Naxçıvan ədəbi mühiti xalqımızın fəlsəfi və bədii fikir tarixində bəşəri düşüm baxımından fərqli düşüm tərzlərini özündə əks etdirir. Xüsusilə qeyd etmək istərdik ki, Naxçıvan poetik mühitindəki fəlsəfi baxışlar, bütün təfəkkür tərzinin xarakterik təzahürlərini "mən"-ində cəm edən bir ədəbi mühit olaraq özünü təqdim edir. Bura istər B.Nemətulla Naxçıvaninin "Qurani Kərim"in təfsirinə verdiyi elmi, fəlsəfi fikirləri, istərsə H.Cavıd, M.Araz istərsə də müasir şair və yazıçılarımızın yaradıcılığındakı mövzularda mövcud olan fəlsəfi fikirlər fəlsəfəyə müəyyən istiqamətdən yanaşmalar, fərdi düşüncələrin bariz nümunəsi kimi özünü təqdim edir.

Bütün bunlarla bərabər bu fəlsəfi fikirlər görkəmli şair, publisist **Hüseyn Razi** yaradıcılığından da kənar deyil.

Bəs Hüseyn Razi yaradıcılığında fəlsəfi fikirlərin əsas istiqaməti nə ilə bağlı olmuş, o, öz dövrünün düşüm tərzində fəlsəfəyə necə, hansı istiqamətlərdən yanaşmış, fəlsəfi baxışlar əsasən nə ilə vəhdətdə götürülmüşdü? Biz görkəmli şair H.Razinin bədii yaradıcılığında, fəlsəfi fikirlərin maddi, mənəvi aləmi, metafizik baxışlarda idrakın təcəssümü, digər fəlsəfi amillərin ideoloji varlıqla vəhdətini görürük. Burada müəllifin hansı düşüncəyə və hansı bədii təfsirlərə yer verdiyinə, onların hansı amillər üzərində qurulduğuna dair işlətdiyi fikirlərə, fəlsəfi yöndən öz münasibətimizi bildirmək istərdik.

Xüsusi olaraq qeyd edək ki, Naxçıvan ərazisi istər öz təbiəti, istər ictimai siyasi quruluşu və adət-ənənələri ilə də bir çox ərazilərdən fərqlənir. Bu baxımdan istər ərazi qədimliyi, istərsə də milli adətlər bədii yaradıcılıqda müxtəlif fikir toplusunda özünü təqdim edir. H.Razi də bu qədim mədəni mühiti özündə daşıyan, Naxçıvan MR Ordubad rayonu, Dəstə kəndində 17 oktyabr 1924-cü ildə anadan olmuş, pedaqoji təhsil almaqla, müxtəlif məktəblərdə müəllim, daha sonra klub müdiri işləmişdir. O, Naxçıvan Radio Verilişləri Redaksiyasında redaktor, "Şərq qapısı" qəzetində ədəbi işçi kimi vəzifələrdə çalışmaqla bərabər bədii ədəbi, poetik yaradıcılıqla da məşğul olmuş, öz yaradıcılıq yolu ilə digərlərindən fərqlənmişdir. H. Razi özünə məxsus düşüncə sahibi olmaqla bərabər, şerlərindəki fəlsəfi fikirlərlə də oxucu kütləsinə özünü müxtəlif istiqamətlərdən təqdim etmişdir.

Ümumilikdə biz XX əsr Naxçıvan ədəbi mühitində yer alan fəlsəfi fikirlərə bu istiqamətdən yanaşdıqda, Naxçıvan poetik mühitində **Hüseyn Razinin** şerlərindəki fəlsəfi baxışların da insanın mənəvi aləmində baş verən təzahürlər fonunda özünü əks etdirdiyini görürük. Onun "Ömür keçdi" kitabında yer alan

...Duyğular ürəkdən lal keçə-keçə,
Sinir tellərini çəkər tarıma...

...Həyat bir dəhşətə çevrilib sönər
Sözlər, düşüncələr ikiləşəndə... [6, s. 70].

kimi misralarındakı düşüncələrində **mənəvi aləmlə maddilik** üz-üzə durmaqla, bütün var olan aləm daxilində maddiliklə mücərrədliyi özündə birləşdirir. Burada əski türk mifindən gələn **xeyir** və **şər duyğu** mücərrəd, **ürək** maddi varlıq kimi bir vəhdətdə özünü təcəssüm etdirir. Diqqət etsək, misralarda mənəvi təfəkkür mədəniyyətinin ayrıca bir hissəsi **şər** və **xeyir** bütöv kainatla yanaşı insan maddiliyində birləşir və şərə istiqamətlənmək ehtimalı maddi varlıqda baş verən təzahürlərlə bağlılıq formasında özünü ortaya qoyur. Hər hansı birinin yoxluğu ümumfəlsəfi baxışda

**natamamlıq** yaradır. Burada insan istəməsə də belə daxili aləminin düşüncəsindən kənarlaşmır və H.Razi yaradıcılığında romantik düşüncələr təkcə onun daxili aləmi deyil, kainat və zərrə kontekstində təzahür formaları kimi də özünü təqdim edir. Sonuc olan **mahiyyət,** insani vücudla vəhdətdə olmaqla, **mücərrəd olanla maddilik vəhdətindəki təzahürlərin bir düşüncə tərzi olaraq özünü təqdim etdiyini ortaya qoyur.**

Şairin yaradıcılığında yer alan "Gözün aydın" kitabında da biz bu istiqamətdən "Etiraf" şerində yer alan insani şərin dünyəvi bir hal olduğu ilə qarşılaşırıq ki, bu fikir və duyğular

...Günahlarım arşınla ölçülməyən bir kələfdi...
...Günah yüküm dünya malı kimi....
...Günahlarım haqsızlıq dəyirmanında
Sürtülən iki daş...
...Gerçəkliyi qanmışam.
Ancaq gecdir, çox yubanmışam... [3, s. 19, 80]

kimi misralarda da yer alır. Bütün bu şər hisslərin insanlıqda-maddilikdə təzahür formaları şerdə özünü əks etdirməklə yanaşı, onun **zaman vəhdətində** təcəllasını da ortaya qoyur. Bu misralardakı **romantizm, idealizm, realizm** vücuddakı **mücərrəd** aləmin təzahüründə maddilikdən gələn **ümum mahiyyətdir** ki, burada da insani vücudun-maddiliyin bətnində də mücərrədlik şərlə daha yaxındır və onunla bir vəhdətdə özünü təqdim edir. Bu kimi misralarda şair mövcud həqiqətlə idealist düşüm arasında dumanlı bir aləmi ömrünə calamaqda peşmanlığını **mahiyyət olaraq** ortalığa qoyur və hər kəsi tam olaraq vahid, bənzərsiz bir varlıq kimi göstərir.

Müəllifin "Mənə deyirlər ki...", şerində yer alan ifadə formalarındakı fəlsəfi fikirlər də aşağıdakı

Hər çiçək gözəldir, öz çalarında,
Səslər eyni deyil könül tarında.
Fikir qatarında, söz qatarında,
Hər kəsin öz yeri bilinsin gərək,
Gəlin, bir ölçüdə eyniləşməyək...

kimi ifadələrdə müəllif özündə **vəhdəti-vücud** fəlsəfəsini cəmləşdirir. H.Razi müdrikliyin bilikdən daha çox onun **maddi aləmdə fəaliyyət tərzindən ibarət olduğunu** diqqətə çatdırmaqla yanaşı, hər kəsədə düşüm tərzinin vücudla vəhdətdə formalaşdığını ortaya qoyur. Onun bu kitabındakı "Əzrayıl" şerində də yer alan

Bütün ömrü vahiməli keçdi onun
Bir nəştərlə səhər-axşam can alsa da...

Axı necə dözürsünüz əlləri qan
Əzrayılla bir səmanın altında siz?...

Mənə deyirlər ki iblisdən çəkin,
Axtar həqiqəti əli çıraqlı.
Neyləyim qəlbimə girən məsləkin
Nöqtəsi vergülü iblisə bağlı... [3. s. 30-31, 39]

misralarında isə, **dini fəlsəfədə** yer alan düşüncələr insana aid mövzular ətrafında cəmləşməklə, əsasən insanın maddi varlığındakı aləmdə ilkin olaraq hər bir insanın özünəməxsus düşüm tərzinin- **əqlinin təcəllası** kimi özünü təqdim edir**.** Burada hər kəsin təkrarsız bir maddi varlıq olmaqla təbiətə, dünyaya baxışında müxtəliflik ideyasını ortalığa qoyduğu ideoloji **bağlılıqla-varlıqda** təklikdə yer aldığını görürük. Bu misralarda insanın öz həyatının müəyyən anlarında seçim zərurəti qarşısında qaldığı və öz seçimindən asılı olaraq, azadlıq müstəvisini reallaşdırır. Şairin **"Axtar həqiqəti əli çıraqlı"** misrasında yer alan fəlsəfə, insanın daha düzgün seçim etməsində **şüurun** ona köməkliyində yer aldığı özünü əks etdirir. Bu onun düşüncəsindəki ən ümumi ideyaları, idealları, dünyaya baxış formaları və təcrübi formalarını aşkara çıxarır ki, bu həm də onun davranış meyarlarını, dəyərlərin iyerarxiyasını müəyyənləşdirir. Bütün bunlar

zəkanın tənqidi süzgəcindən keçməklə, dəyişən dünyada yenidən zəkanın qiymətləndirilməsinə kömək edir. Bu prosesdə fəlsəfə şüur bir sıra funksiyaları həyata keçirməklə, milyonların içində fərqli şəkildə özünü əks etdirdiyi misralarda yer alır.

İlk öncə **"Mənə deyirlər ki, iblisdən çəkin"** misrasından da göründüyü kimi insan vəhdəti-vücudda ən mühümlərlə, bəşəri demonizmin - *Şər və Xeyri* ilə qarşı-qarşıya dayanır. Bu demonizm maddilikdə təzahür edən mənəvi aləmlə vəhdətdə insan kimliyini göstərilməkdədir. Bu bədii və fəlsəfi fikirlərin göstərilən misralardakı mifoloji inanclarla bağlılığı, bununla yanaşı onlarda mövcud olan romantizm, idealizm, realizm və metafizik aləm xeyir-şər vəhdətində olmaqla, maddi aləmlə mücərrəd aləmin üz-üzə dayandığı bir formada özünü təqdim edir. Burada hər ikisi, **maddiliklə və mücərrədlik** insan şüurunda ayrı-ayrı varlıqlar kimi mövcud olaraq göstərilir. Misralarda yer alan ifadələrdən ortaya çıxan fikir ideyadan real həyata maddiliyə, yəni materiyaya istiqamətlənir, ümumi mahiyyətdə-insan və kainat bütövlüyündə **makro aləmlə mikro aləm bir vəhdətdə** özünü təqdim edir. Müəllif **fəlsəfi dünyagörüşün** qeyri-fəlsəfi formalarını tənqid və təhlil etməklə, həqiqi idrakın yolunu təmizləyir. Burada yer alan fəlsəfənin **metodoloji funksiyası** mövcud sosial cəmiyyətin insana təsiri, hansısa məqsədə çatmağın vasitə, metod və prinsiplərini müəyyənləşdirmək şərtini ortaya qoyduğu tam olaraq özünü əks etdirir. Bu insan maddiliyindəki ehtiyacın tənzimində düşüm tərzinin mənəvi və maddi aləmdən irəli gəldiyini ortaya qoyur. Müəllifin fikrindəki bu amillər isə, Şər və Xeyir təzahürlərinin maddiliklə bağlılığının real təzahürü kimi özünü təsdiq edir [F.R.].

Bununla bərabər fəlsəfənin **humanist funksiyası** sosial gerçəkliyin şərhində, insana diqqətli münasibət yollarının axtarışında, mənəvi, bədii şüurda yaranan ideyaların nəzəri dilə çevrilməsində, etik və estetik yanaşmaların yayılmasında öz reallığını da ortaya qoyur.

Fəlsəfənin **praktiki funksiyası** onun əxlaqi dəyərlərində və insanların rifahında ardıcıl surətdə təzahür edir. Bu halda f**əlsəfə həm fərdin, həm də cəmiyyətin mənafelərini özündə cəmləşdirməklə mütləq varlıqda daha real görünür.**

H.Razinin fəlsəfi düşüm tərzi bir rellığı ortaya qoyur. Burada ümumilikdə insanın hər birinin ayrıca fərd olması və özünəməxsus düşüncə və dərkə sahibliyi özünü təsdiq edir ki, bu dini kitabımız "Qurani-Kərim"də də **"Mən sizi özümə bənzər xəlq etdim"** ifadəsi ilə üst-üstə düşür. Belə ki, bu hər bir insanın ayrıca bir fərd olduğu və özünəməxsus idraka sahibliyi tam olaraq təsdiq olunur. Əgər diqqət etsək, müəllifin bu misralarında həm də maddi varlıqla mücərrəd şər vəhdəti fəlsəfədə mükəmməl bir ideya kimi görünməklə, həm də müdriklik ideyasını təcəssüm etdirir. Təbii ki, burada insan zəkasının ali məqsədləri müəyyən istiqamətlərdə şərlə vəhdətdə ortaya çıxır və bütövlükdə insanın yaşam tərzi onun öz düşüncəsinin məhsulu olaraq sonda özünü təqdim edir. Xüsusi olaraq qeyd edək ki, yuxarıdakı misralardakı şər və xeyrin insan vücuduyla vəhdətdə təcəssümü **bəxt, tale, qismət, alın yazısı deyilən bir şeyin olmadığını, hər kəsin öz düşüncəsi və əməlləri ilə öz bəxti, taleyi və alın yazısını yazdığını tam olaraq təsdiq etmiş olur [-F.R.]**

Biz bu fikrin davamını şairin yaradıcılığında yer alan "Həmişəbahar" kitabındakı "Yaratdı getdi" şerində də izləyirik ki, burada yer alan insanın

Bəzən şimşək olub çaxdı, nə çaxdı
Sanki ulduzlara yol açacaqdı.
Zirvədən zirvəyə qalxdıqca qalxdı,
Sonra günəş kimi o batdı getdi [4, s. 88-89]

misralarında da müşahidə edirik. Burada insan təfəkkürünün fərqli təzahür formaları ilə bağlılığında öz düşüm tərzindən əldə etdiyi mahiyyətin ali mənəvi dəyərlər kimi yer aldığını görürük. Müəllif, **maddiyatın təzahür formalarının sonda mücərrəd aləm qovşağında yer aldığını** göstərməklə bərabər, onu öyrənənlərə insan haqqında həqiqəti dərk etmək imkanı yaradır. Burada insan şüurunun təzahüründə idrakın rolunun nə qədər yüksək olmasına baxmayaraq, sonda mücərrəd aləmə qovuşacağı önə çəkilməklə, məntiqi fikir mahiyyətin son yeri, şəxsiyyət idrakının son nəticəsi və düşüm tərzi kimi səciyyələndirilir [-F.R.].

Biz bununla bərabər Hüseyn Razinin "Səsləşən dağlar" kitabındakı şerləri içərisində "Ana məhəbbəti" şerində də fərqli bir fəlsəfi fikirlə qarşılaşırıq. Bildiyimiz kimi qədim türk dini fəlsəfəsində, türk mifoloji inanclarında An tanrısının izləri ilə də qarşılaşırıq və Ana sözümüz

“Kiçik yaradan” mənasında özünü təqdim edir [ 11 s. 80-89] ki, bu istiqamətdəki fəlsəfi fikirlərə diqqət etsək, bu şerdə dini inanc fəlsəfəsi kimi özünü aydın şəkildə göstərir. Onun digər bir şerində
Necə oldu yaranmısan,
Arzun böyük, eşqin dərin.
Bir ürəksən, ürəklərin,
Keşiyində dayanmısan [5, s. 52-53].

Şair bu misralarında Ananın necə yaranması və onun neçə-neçə ürəklərin keşiyində durması, bu yolda onun tutduğu yol özünü göstərir. Biz bu misralarda yuxarıda da qeyd etdiyimiz kimi mənbələrdə qədim inanclarımızda yer alan **An/Anu ilahə**-yaradan tanrı ilə eynilik daşıyan fikirlərlə rastlaşırıq. H.Razinin bu misralarındakı **Ana** obrazı və bu günkü **Ana** sözümüzün **An/Anu ilahə** tanrı adını dini inanc fəlsəfəsi kimi özündə təqdim etdiyini görürük. Digər türklərdə də bu dini fəlsəfi ad **An Darxan** xatun, **Bay Anay** adı ilə yaradan tanrı olaraq mifik inancı özündə cəmləşdirir. O, insanla xüsusi dildə danışır, ona kim olduğunu, insani ləyaqət və vəzifənin nədən ibarət olduğunu, onun cəmiyyətə, təbiətə, başqa insana, bütün kainata münasibətdə bir insan kimi hüquq və vəzifələrinin nədən ibarət olmasını göstərir. Xüsusi olaraq qeyd edək ki, mifoloji şüur dini və ya fəlsəfi şüurdan daha qədim şüur tipidir. O, sinkretikdir və dinin, bədii yaradıcılıq başlanğıcının, əxlaqi norma və məqsədlərin elementlərinin bölünməmiş vəhdəti kimi çıxış edir. Mifoloji şüurda təxəyyüldə canlandırılan, fantastik anlayışlar reallığa çevrilir, həqiqətdə mövcud olanlar kimi qəbul edilir. Mifoloji və dini şüurun nisbəti məsələsi də fəlsəfədə geniş yer alır ki, bu misralarda mövcud fəlsəfi əlamət, qədim tarixlə bağlı fəlsəfi düşüm formasında özünü göstərir [11, s. 81-89].

Biz H.Razi yaradıcılığında digər fəlsəfi baxışlarla da qarşılaşırıq ki, şairin “Xatirələr işığında” kitabında ictimai siyasi proseslərdəki “Həyatın iç üzü” şeri də məna çalarlarının genişliyi ilə fəlsəfi yöndən dəyərli faktlarla özünü təqdim edir.
“Həyatın iç üzü söküldü yaman”...
“Sel kimi çağlayan diləklərimiz
Qurudu baxımsız bulaqlar kimi” [5, s.166-167].

Diqqət etsək bu misralarda əsasən siyasi quruluşun idarəçilik formaları özünü göstərir ki, bu bütün ictimai-siyasi quruluşlarda öz əksini tapmaqdadır. Əgər diqqət etsək, bu misralarda son illər elmdə **sinergetika** adlanan yeni istiqamətin yer aldığı diqqəti cəlb edir. **Sinergetika** isə mürəkkəbliklər olmaqla, müəyyən qaydanın xaos şəraitində necə yaranması və sonra necə dağılması haqqında bir elm kimi özünü əks etdirir və “ölü keçid” adlanır. Şairin “Sel kimi çağlayan diləklərin baxımsız bulaqlar kimi quruması” ifadəsində bu fəlsəfi amil tam olaraq özünü əks etdirir. Qədim yunan dilindən götürülmüş **“sinergetika”** bədii yaradıcılıqda da sənətkarın fikir və emosiyalarını maddi incəsənət vasitələrində idrakın hədəfi olması faktı və dünya ilə qırılmaz əlaqədə əyaniləşdirməsi kimi müəyyən edildiyini göstərir [7, s. 21-27]

Bildiyimiz kimi bədii yaradıcılıqda şəxsi-emosional komponent ön plana çəkilir. Sənətkar yaradıcılıq fəaliyyəti vasitəsilə bədii obrazı formalaşdırır və başqa insanların psixikasına müəyyən təsir göstərmək məqsədi ilə öz qavrayışını ictimai mühitə anlatmağa çalışır. Təbii ki, burada istənilən şarin digər bədii yaradıcılıq xüsusiyyətləri, öz düşüm tərzi əsas amil olaraq özünü göstərir.

Biz Hüseyn Razi yaradıcılığında da bu ideoloji baxışın əsas olduğunu görürük və o, ictimai siyasi proseslərdəki “Mənim xəyallarım” şerində yer alan
Gözəl duyğularım şirin anlarım,
Həmişə qəlbimdə nəğmələşən səs.
Bu günə bir yerə bağlıyam ancaq,
Xəyallar ən ülvi nəğmələşən səs [2, s. 27-28]
kimi fikirlər, bu misralarda insan bətnindəki ikili dünyaların, maddilik və mücərrədliyin-əsasla qeyri-əsasın fəlsəfi baxışları kimi özünü əks etdirir. Burada **insan və ondaki idrak** təzahürlərində yeri və küllü kainatdakı maddi varlıqlarla nəfs vəhdəti mütləq həqiqət kimi əks olunur. Şair bunların sonda insanlığın iç dünyasında mövcud sevinc və peşmançılığın vəhdətdə olduğu, həqiqi varlıqla əks həqiqətin müəmmalı olması fikrində dayanır.

Bunlarla bərabər H.Razinin romantik ruhda yazdığı “Sevənlər çoxalır”, “Bağışlamazdım” “...Ölərdim əhdimi ayaqlamazdım”, “...Mən sənə can dedim sən mənə böhtan” [6, s. 55-57] kimi misraların yer aldığı şerlərində əsasən şairin romantik metoda üstünlük verdiyi bir işarədir. Burada həyat hadisələrində subyektiv “**mən**” önə çəkilir və ikili dünyada qeyri-əsasla əsas, **xeyirlə şər** dünyası **mahiyyətdə-insanda** təzahür edir. Bu poetik yol H.Razi ədəbi düşüncəsində bir **fərdi** təmsil edir və şair bu duyğularında maddi-mənvi aləmindən yüksəkdə durur ki, əgər xatırlasaq, bu fəlsəfi istiqamət eynilə böyük şairimiz N.Gəncəvi yaradıcılığında da xüsusi bir fəlsəfi fikir kimi təkrarlanır. Dünyanı öz fikri istedadı ilə heyrətə salan bu ulu şair, eşq adlı ülvi duyğuların insanı daxilən, ruhən təmizlədiyinə xidmət etdiyinə inanırdı, bu ilahi duyğu ilə yaşamağın qaçılmazlığını önə çəkərək,

Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,
Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz ....

Sənsiz ölürəm, nigar, tez gəl... [10, 34, 39]

kimi misralarında da bu fəlsəfi fikri təkrarlayırdı.

Biz bu istiqamətdən olan yazılarımızda qərb fəlsəfi fikrində xüsusi yeri olan Hötedə “həqiqət işığı” fəlsəfi fikrində insanın qurtuluşunun bu işıqda gördüyünü Naxçıvan poetik mühitində isə qədim türklərin hələ m. ö. VIII minillikdən meydana çıxan **Şaman-Atəş** bütövlüyündə Sufizmin ayaq açıb türk fəlsəfi aləminə gəlişinə təsir etdiyinə faktlar göstərmişik. Düzdür, Azərbaycan ədəbiyyatında Sufizmin IX əsrdə Həllac Mənsurla “başlanması” versiyası tez-tez təkrarlansa da, bu sovetlər siyasətinin xalqımızın istər tarixi, istərsə də mədəniyyətini son dövrlərə çəkmək ideyası olmuşdur. Təbii ki, bu fikir sovet siyasətində rusların **bu cərəyanın türklərdə hələ 8 min il öncəki mövcudluğuna bir kölgə salmaq ideyası idi.** Əgər xatırlasaq m. ö. IV əsrdə Makedoniyalı İsgəndərin Azərbaycana hücumu, Şaman Atalara qarşı mübarizəsi, “Avesta”nın yandırılması və məhz onların Hindistana köçü ilə də burada atəşpərəstliyin meydana gəlməsi və yayılması bir tarixi həqiqətdir. Onun burada şaman suffistləri zəka sınağına çəkib əfv etməsi, bu fəlsəfi fikrin ən azı hələ m. ö. IV əsrdən türk mifik fəlsəfi düşüncəsində geniş yer aldığını sübut edir [12, s. 236-245].

Bu isə Hötenin “Faust” əsərində “...həqiqət işığının insanın xilas yolu olması” fikrinin, ümumtürk mifi-fəlsəfi fikrindən bəhrələndiyini, qədim türk Azərbaycan fəlsəfi dünyagörüşünün Qərbə təsirinin danılmaz olduğunun sübutudur.

H.Razinin “Odlu diyar” mənzum pyesində **nur** və **həqiqət** fəlsəfi ideyası dörd ünsür (su, od, torpaq, hava) vəhdətində ortalığa çıxır və o, Gültacın, Bayraməli və Cəlilbəyin dilindən eşitdiyimiz

...Əgər o dünyada varsa cəhənnəm
Bəs niyə odlarda yanır bu aləm...

...Tora saldı xan səni,
O cənab şeytan səni.
Görüm yerə girəsən,
Biqeyrət insan, səni...
...Yahu günəş aydan, cazibədardır... [6, s. 248, 257-258]

kimi misralarında **insan şeytan əlində nəfsinin qulu, dünya od içində günəşin aydan cazibəli** kimi ifadələri **kosmoqonik fəlsəfə** olaraq özünü təqdim edir. Burada **insan maddiliyində dünya Günəşinin işığı və onun zülməti Ay–insanın axıtdığı qanlar,** Haqqın işığında-yaradılışda bəşərin ikili xisləti-**Şər-Xeyir** vəhdəti önə çəkilir. Diqqət etdikdə bu misralarda bəşərin xilas amili **nurun və idrakın-əsas və pak olması-insanın şeytana uymaması ilə tam olaraq əsaslandırılır.**

**Nəticə.**

Bütün bu fəlsəfi fikirləri ümumiləşdirib nəticə olaraq deyə bilərik ki, XX əsr Naxçıvan ədəbi mühitinin poetik dünyasında öz fəlsəfi fikirləri ilə yer alan H.Razi poetik aləmi, Naxçıvan poetik mühitindəki fəlsəfi dünyagörüşün müxtəlif istiqamətləri ilə digər ədiblərdən fərqlənmişdir. Ümumilikdə təkcə H.Razinin deyil, Naxçıvan ədəbi mühitində yer alan seçilən şairlərimizin yaradıcılığındakı bu istiqamətdən yer alan fəlsəfi fikirlərin tədqiqinə böyük ehtiyac var. İnanırıq

ki, gələcəkdə bu istiqamətdə geniş həcmli əsərlər işıq üzü görəcək, H.Razi yaradıcılığındakı fəlsəfi fikirlərlə bərabər, Naxçıvan poetik mühitində yer alan bütün şairlərimizin fəlsəfi söz dünyası dünya ictimaiyyətinə də çatdırılacaqdır. Təbii ki, bütün bunlara nail olmaq, öz ədəbi mühitimizin beynəlxalq aləmə tanıdılmasında mühüm amil olmaqla, Azərbaycan poetik mühitindəki fəlsəfi dünyagörüşün qədimliyini də ortaya çıxarır [-F.R.].

## ƏDƏBİYYAT

1. Fəlsəfə. Mühazirələr toplusu (Dərs vəsaiti). Bakı 2016, 326 s.
2. Hüseyn Razi. Canlı tonqal. Bakı: Azərbaycan Dövət Nəşriyyatı.1977, 94 s.
3. H.Razi. Gözün aydın (şeirlər). Bakı: Azərnəşr, 1996, 232 s.
4. Hüseyn Razi.. Həmişəbahar. Bakı:Azərbaycan Dövət Nəşriyyatı.1974, 239 s.
5. H.Razi Xatirələr işığında. Bakı:Nurlan.204, s.166-167, 256 s
5. Hüseyn Razi. Səsləşən dağlar. Bakı:Azərbaycan Dövət Nəşriyyatı.1970, 146 s.
6. Hüseyn Razi. Ömür keçdi. Bakı: Elm və təhsil, 2011, 304 s.
7. Хакен Г. Синергетика. Иерархия неустойчивостей в самоорганизующихся системах и устройствах. Москва: "Мир", 1985. 423с.
9. Mehdiyev R. Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı: Şərq-Qərb, 2010, 360 s.
10. Nizami Gəncəvi. Lirika. Bakı: "Lider nəşriyyat", 2004, 160 s
11. Rzayev F.H. An/Anu qədim türk tanrı adının Naxçıvan ərazisi toponimlərində izləri//Elmi əsərlər, Naxçıvan Universiteti, Naxçıvan NU: Nuh, 2018, №2, s. 81-89
12. Rzayev F.H. Məmməd Araz yaradıcılığının fəlsəfi istiqamətləri.//AMEA Ədəbiyyat İnstitutu "Ədəbiyyat Məcuməsi", Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri (Xüsusi buraxılış), XXVI c. Bakı-Elm və təhsil, 2015, s. 236-245
13. Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А. Стратановского. Москва: Наука, 1964, 941 с.
14. http://www.hahayile9kk.appspot.com.

***AMEA Naxçıvan Bölməsi**
***E-mail: firudinrzayev@gmail. com***

**Firudin Rzayev**

## THE PHILOSOPHICAL WORLD OF HUSEYN RAZI'S CREATIVITY

The article discusses the philosophical ideas in the creativity of H. Razi, who has a special place in the literaryenvironment of Nakhchivan.His philosophical views reflected in the world of poetry from certain directions are included in the article. We see that the formation of philosophical ideas in ancient times arose from certain forms of cognition in the understanding of the world by peoples.

In the article, we encounter the facts that these forms of thought, the love for cognition that carries a worldview, are called "philosophy" in world science.

These philosophical ideas are included in the creativity of H. Razi from certain directionsThe study provides scientific explanations of his philosophical views based on his poems. In the artistic work of the outstanding poet H. Razi, the material and spiritual world of philosophical ideas, the embodiment of cognition in metaphysical views take place. Here, along with different philosophical factors, we also see his unity with ideological existence.

**Keywords:** *Sakh, Suriyash, Shikhu, Azerbaijan, Nakhchivan, Turkey, oikonym, oronym, hydronym.*

**Фирудин Рзаев**

## ФИЛОСОФИЧЕСКИЙ МИР В ТВОРЧЕСТВЕ ГУСЕЙН РАЗИ

В статье рассматриваются философские идеи, содержащиеся в творчестве Г. Рази, занимающего особое место в литературной среде Нахчывана. В статье изложены его философские взгляды, отраженные в мире поэзии с определенных сторон. Мы видим, что формирование античных философских идей возникло на основе определенных форм познания мира среди людей. В статье мы сталкиваемся с фактами, что эти формы мышления, любовь к пониманию, несущая в себе мировоззрение, в мировой науке называются «философией». Эти философские идеи проявляются в определенных направлениях в творчестве Г. Рази.

В исследовании даются научные объяснения его философских взглядов на основе его стихотворений. Художественное творчество выдающегося поэта Г. Рази включает в себя материальный и духовный миры философских идей, воплощение познания в метафизических воззрениях. Здесь, наряду с различными философскими факторами, мы видим и его единство с идеологическим бытием.

**Ключевые слова:** *Сах, Сурьяш, Шиху, Азербайджан, Нахчыван, Турция, ойконим, ороним, гидроним.*

*Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 12.06.2025**
**Son daxilolma tarixi:19.07.2025**